# XV əsr təkkə ədəbiyyatında ələvi-bəktaşi şairlərinin ilahi eşqə verdiyi önəm

**Nigar İsmayılzadə**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**E-mail:** nigarismailzadeh@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., akad. V.M. Məmmədəliyev,
filol.ü.f.d., dos. A.R. Xəndan

**Açar sözlər:** türk təsəvvüf ədəbiyyatı, ilahi eşq, Ələvi-bəktaşi ədəbiyyatı, təriqət, sufi
**Ключевые слова:** турецкая суфийская литература, божественная любовь, литература алевитов-бекшати, верования, суфист
**Key words:** Turkish Sufi literature, divine love, Alawi-Baktashi literature, sufi order, sufi

XV əsr türk təsəvvüf ədəbiyyatının inkişaf etdiyi dövrdür. Bu dövr sadəcə xronoloji baxımdan deyil, həmçinin ilahi eşqə fərqli baxışların yetkinləşdiyi ilə də seçilir. Belə ki, ələvi-bəktaşi ədəbiyyatının məlami-həmzəvi ədəbiyyatından fərqləndiyi, hər ikisinin də mövləvi şeirlərindən ayrıldığı zamanın başlanğıcı da XV əsrdir.

XII-XIII yüzillər Anadolu sufilərinin çoxu Xorasandan gəlmişdilərsə, XV əsrdə Anadoluda anadan olan təriqət əhli və şairlər yetişdi. Bunların içində Anadolu doğumlu Hacı Bayram Vəli, Yazıçızadə Mehmet, Akşəmsəddin Mehmet, Əşrəfoğlu Rumi, Süleyman Çələbi, İbrahim Tənnuri, Kiçik Abdal kimi nəhəng simalar vardı.

XV əsr təsəvvüf ədəbiyyatında ilahi eşq əsasən A.Gölpınarlının təsəvvüfü zümrə ədəbiyyatı adlandırdığı (1, 371-375) təriqət şairlərinin əsərlərində lirik tərənnümünü tapmış olur. A.Gölpınarlı bunları əsasən iki yerə məlami-həmzəvi və ələvi-bəktaşi ədəbiyyatı kimi bölsə də burada qadiri, mövləvi, xəlvəti təriqətinin həm əruzda, həm də hecada yazdıqları ilahi eşq şeirlərindən də söz açmaq lazımdır. Belə ki, məlami-həmzəvi ədəbiyyatla, ələvi-bəktaşi təkkə şeiri ümumi sufi terminologiyası ilə bərabər özlərinin formalaşdırdıqları bir çox anlayşlardan, ədəbi sənətlərdən də istifadə etmişlər. İlahi eşq konsepsiyası baxımından "Məlami-həmzəvi ədəbiyyat tərkibində həm ələvi, həm də bəkri təriqətləri birləşdirir. O baxımdan təkkə ədəbiyyatının ikinci qolu fərqli düşüncələrə sahib çox çeşidli ədəbi nümunələrdən ibarətdir. Məlami-həmzəvi ədəbiyyatın ən səciyyəvi cəhəti təvallanı (Ali-əbanın vilayətini tanımaq, onları sevmək, onları özünə dost bilmək) qəbul edib, təbbəranı (Ali-əbaya düşmən olan Yezid və tərəfdarlarını inkar etmək, onlardan çəkinmək) qəbul etməməkdir. Bununla yanaşı məlami-həmzəvi ədəbiyyatda silsilətüz-zəhəb (on iki imamı sevmək və qəbul etmək) varsa da bir o qədər geniş yayılma sahəsinə malik deyildir" (1, 326). Məlami-həmzəvi təkkə şeirinin bəzi nümayəndələri daha çox şiə əqidəsinə yaxınlıqları ilə bilinirlər. Hər halda məlamilər heç bir halda əhli-sünnət əqidələrini mənimsəməmiş, ortodoks dediyimiz sünni İslama gizli müxalifətləri ilə önə çıxmışlardır. Məsələn, Hacı Bayram Vəlinin (XV əsr), Bosnalı Həmzə Balinin (XVI əsr), Əhməd Sarbanın (XVI əsr), Qayğusuz Vizeli Əlaəddinin (XVI əsr), Laməkani Hüseyn Əfəndinin (XVII əsr), Bosnalı Abdullahın, Olanlar Şeyxi İbrahimin (XVII əsr), Sunullah Qaybinin (XVII əsr) şeirlərində vəhdəti-vücud anlayışı ilə birlikdə özlərinə məxsus terminlərdən sıx-sıx faydalandıqları da görünür.

Qadiri, mövləvi, xəlvəti və məlami-həmzəvi təkkə şeirindən fərqlənən ələvi-bəktaşi

poeziyasının üslub sadəliyi, XV və daha sonrakı yüzillərdə durulmağa, heca vəzni aparıcı mövqeyə çıxmağa başladı. Bu zümrənin təkkə ədəbiyyatı vəhdəti-vücud mövzusunu işləməklə yanaşı daha çox Məhəmməd, Əli, Əhli-beyt, on iki imam, imamət, təvəlla və təbərra mövzularına, yol, ərkan məsələlərinə ağırlıq verdi. İlahi eşq Allah-Məhəmməd-Əli üçlüsünün vəhdətində təqdim edildi ki, bu anlayışa heç bir təsəvvüf ədəbiyyatında rast gəlmək mümkün deyildir. Ələvi-bəktaşı şeirində önə çıxan əsas fikir birlikdir. Bu konseptual fərq ələvi-bəktaşi şeirinin parlaq nümayəndələri olan Hacı Bəktaş Vəlinin (XIII əsr), Səid Əmrənin (XIII-XIV əsrlər), Abdal Musanın (XIV əsr), Qayğusuz Abdalın (XIV-XV əsrlər), Təmənnayinin (XV əsr), Sadıq Abdalın (XV əsr), Küçük Abdalın (XV əsr), Güvənc Abdalın (XV əsr), Xətainin, Muhyiddin Abdalın (XVI əsr), Yemininin (XVI əsr), Pir Sultan Abdalın (XVI-XVII əsrlər), Qul Himmətin, Aşıq Viraninin (XVII əsr) və başqalarının əsərlərində açıq şəkildə görünür. Ələvi-bəktaşi ədəbiyyatının ən bariz tərəfi Haqqa çatmağın yalnız bir yolunu - eşq yolunu qəbul etmələri və şeirlərində də ilahi eşqi müxtəlif tərəflərdən işləmələridir.

XV əsrdə türk təkkə ədəbiyyatının inkişafında ələvi-bəktaşi yolunun izləyiciləri olan şairlərin rolu böyük olmuşdur. Dədələri İslamın Anadoluda, Balkanlarda yayılmasında mühüm rol oynamış bu təkkə şairləri həm həyatları, həm də söhbətləri ilə qılıncın girə bilmədiyi yerlərə girmiş, insanların könüldən, sevərək İslama bağlanmasına, qruplar halında İslamı qəbul etməsinə, ordunun mənəvi fəthə hazırlanmasında, tarixin axışının dəyişdirilməsinə səbəb olmuşlardır. Ələvi-bəktaşi ədəbiyyatının böyük şairləri və vəliləri torpağı vətən etmək, dövləti daimi etmək, insanları Haqqa dəvət etmək üçün mübarizə aparmışlardır. Ona görə də millilik ruhuyla yoğrulmuş xalq sufizmi ələvi-bəktaşi inancının təməl fəlsəfəsi idi.

Ancaq XV əsrdə yaşamış ələvi-bəktaşi şairlərinin çoxunun əsərləri itib batdığından bizə qədər gəlib çatmamışdır. Məsələn, hürufi inancına bağlılığı ilə bilinən Təmənnayi adlı bəktaşi şairinin XV əsrin başlarında yaşadığı və Qesrəriyəli olduğu bilinir. Bəzi qaynaqlara görə onun saqqalını, qaşını, bığlarını qırxdırıb kəndbəkənd gəzdiyi yazılıdır (3, 399). Buradan da onun qələndəri olduğu anlaşılır. Lətifi də "Təzkirə"sində onu qələndəri və ortadoks sünnü İslama uymayan sözlər dediyi üçün küfr söyləyən biri kimi təqdim edir. Təmənnayinin bizə qədər bir şeiri gəlib çatmışdır:

Şol kadar göstermiştir bana devran gönlümü
Kim sanurdum görmek olmaz çeşmi-insan gönlümü

Bilmezem kim bu cihan içre vücudu yok mudur
Yoksa vardur çerh benden kıldı pinhan gönlümü

Ey acep kadir olub bir gün giyem mi ben anı
Kaddi bala kendi ziba cana ol can gönlümü (3, 399).

XV yüzildə yaşamış ilahi eşq şairlərindən biri də Küçük Abdal adı ilə bilinən qələndər məşrəb bir dərvişdir. Onun cönglərdə və ağızlarda qalan şeirlərinin çoxu nəzm və nəsrlə yazdığı "Otman Baba vilayətnaməsi"ndə verilmişdir. Vilayətnamədən aydın olur ki, Küçük Abdalın yüksək dini təhsili olmuşdur, Quranı və hədisləri gözəl bilmişdir. Vilayətnamədə verilən şeir parçalarından onun qüdrətli bir şair olduğu, ilahi eşqi digər ələvi-bəktaşi şairləri kimi Allah-Məhəmməd-Əli üçlüsünün vəhdətində verdiyi məlum olur.

Şahın methin okur diller
Açılmış bahçede güller
Anda kevser içen kullar
İmamı ü pişüva geldi

Muhammede inen Kuran
Okundu nezzel el-fürkan
Utanıp pirinden korkan
Öksüz oldu geda geldi

Küçük Abdal bu biçare
Nail oldu bu güftare
Niyaz eyledi o yare
Hemen Mensur dara geldi (3, 413).

XV əsr ələvi-bəktaşi ədəbiyyatının ilahi eşq anlayışını başa düşmək və bu anlayışın digər təriqətlərdən fərqli yönlərini öyrənmək üçün Sadık Abdalın divanına baxmaq kifayətdir. Həyatı haqqında demək olar ki heç bir şey bilmədiyimiz bu şair həm əruzda, həm hecada yazdığı şeirləri ilə öz zamanında böyük şöhrət qazanmışdır. Mənkabələrdən öyrəndiklərimizə görə Dimetokada dərgah qurub yerli xalqı müsəlmanlaşdıran Hacı Bəktaş dərvişlərindən Seyyid Əli Sultanın xəlifəsi olmuş, ondan təriqət elminin sirlərini öyrənmişdir. Şeirlərində özünün də bildirdiyi kimi Qızıl Dəli adı ilə məşhur olan və 1412-ci ildə vəfat edən Seyyid Əli Sultandan 22 yaşında olarkən nəsib almış, 24 yaşında da şeir yazmağa başlamışdır.

Yigirmi iki yaşına erince
Gezerken aşk ile hayran bi-azz,

Erişdim Tekke-i Kızıl Deliye
Hudamı oldum anın dahi bi-gayz,

Erişdim çün yigirmi dört yaşa ben
Bana lutfeyledi Kızıl Deli bi-azz,

Ki oldur sırr-ı şahım Hacı Bektaş (4, 146-147) .

Ancaq nə zaman nəsib aldığı bəlli olmadığından onun 1370-1380-ci illər arasında anadan olduğunu təxmin etmək olar. Sadık Abdal Seyyid Əli Sultanın xəlifələri ilə birlikdə dərgahda yaşamış, Divanını Qızıl Dəli həyatdaykən, təqribən 1390-cı ilin sonunda qələmə almışdır. Divanında bir neçə yerdə Qayğusuz Abdaldan söz etməsi göstərir ki, Qayğusuz Abdal tanınmış şair ikən Sadık Abdal gənc yaşlarında imiş. Bu, Qızıl Dəli Sultan dərvişinin Divanından başqa digər əsərləri də olmuşdur ki, bizə qədər gəlib çatmamışdır. Buna baxmayaraq Divanında əsasən Hacı Bəktaş Vəli, Qızıl Dəli Sultan, Abdal Musa haqqında bilgilər vermiş, bəktaşiliyin əsaslarını anlatmışdır. Xüsusən də Hacı Bəktaşın "Makalat" əsərini, ərənlərin qütbü olduğunu böyük hörmətlə xatırlamışdır:

Cihanın nazırı ol kutb-ı alem Şah-ı bi-hem-ta
Cihanda ism-i paki Hacı Bektaş-i Veli meşhur
Heman oldur kamu dillerde destân zat-ı bi-heh-ta (4, 121).

Dünyanı idarə edən aləmlərin qütbü bənzəri olmayan Şahdır. Dünyada məşhur olan təmiz adlı insan Hacı Bəktaş Vəlidir və tayı-bərabəri olmayan şəxsiyyəti bütün dillərdə dastan olmuşdur.

Başqa bir şeirində isə Abdal Musanın batın elmini bilməsini, avamların bunu anlamayacağını dilə gətirmişdir.

Dediler ismine Abdal Musa Sultan bu zahirde
Veli batında ismi çok anı fehm eylemez edna (4, 257).

Bundan başqa didaktik, əxlaqi və ərkani məzmunlu çoxlu şeirlər yazmış, vəhdəti-mövcud fəlsəfəsini müdafiə etmişdir. Sadık Abdal ilahi eşqi üluhiyyət sirri adlandırır:

Ol uluhi sırrına ekmel olan sadıklara
Hankahı arş-ı ala sidre-i ali makam (4, 182).

Yenə bir başqa yerdə ilahi eşqi bir olmaq adlandıran Sadık Abdal eşqi doğruların yolu (andan sadıkan olmadı şasi) adlandırır, eşq yolunu yolların yolu bilir.

Beraber dahi bir olmak demektir
Uluhi bildirir hem bi-teati
Ki oldur rah-ı matlubun bilirsen
Hem oldur rah-ı mirac-ı şevar
Muhakkıklar bilir anın anın tarıkin
Taakul edemez cife tabayi (4, 184-185).

Birlikdə olmaq, bir olmaq deməkdir.Birlik təbii ki, həm də bənzəri olmayan Tanrılığı bildirir. Əgər bilirsənsə demək ki, istədiyin, arzu etdiyin yol odur. İlahi eşq aşiqlər üçün meracın yoludur, yolların yoludur. Yalnız həqiqəti axtaranlar bilirlər ki, eşqin yolu Allaha gedən yoldur. Şairə görə dünya nemətlərinə qapılanların, dünyanı sevənlərin bu ilahi eşqi anlamağa ağılları yetməz.

Ələvi-bəktaşi şairi olub abdallar zümrəsinə mənsub və Abdal təxəllüsü ilə şeirlər yazan Güvənc Abdal mənbələrin verdiyi məlumata görə Seyyid Şeyh Numanın oğludur. Ələvi dədələrinin əksəriyyətində olduğu kimi onun da soyu yeddinci imam Museyi Kazıma qədər gedib çıxır. Güvənç Abdal soyu etibarı ilə Hz.peyğəmbərin nəslindəndir, ona görə də xalq arasında böyük hörmətə sahib olmuşdur. Güvənç Abdal təriqət təhsilini Əhməd Yəsəvi dərgahında tamamladıqdan sonra xalqı irşad etmək üçün Gümüşxanə Kürtün qəsəbəsinin Taşlıca kəndinə gəlmişdir. Xorasan ərənlərindən olan Güvənç Abdal Anadoluda irşadla məşğul olan şair və alim bir insandı. Xorasandan gələn bütün ərənlər Hacı Bəktaş Vəlini özlərinə pir bilib onun ətrafında toplandılar. O baxımdan Güvənç Abdal Kürtünü tərk edib Hacı Bəktaş dərgahına gəldi. Onun doğum və ölüm tarixi bilinməz. Bizə qədər gəlib çatan bir neçə şeir vardır ki, Gənç Abdal təxəllüsü ilə möhürlənmişdir. Onun türbəsi də Hacıbəktşda Qırxlar Meydanının giriş qisminin sol tərəfindədir. İlahi eşq onun şeirlərində də Allah-Məhəmməd-Əli formulu daxilindədir:

Saki doldur bizə dolu içelim
Okuyalım aşk kitabın seçelim
Olur olmaz davalardan geçelim
Allah bir Muhammed Ali aşkına

Pirler nasihatın güzelce dinle
Bozma erkanını tatlı dil söylə
Kemlik edenlere sen eyilik eyle
Allah bir Muhammed Ali aşkına (3, 440).

Güvənc Abdalda saqi, dolu, eşq kitabı, ərkan, pir kimi deyim və istilahlar ilahi eşqin, eşq dəliliyinin məcazlarıdır.

Beləliklə, XV əsr təkkə şairlərinin izlədiyi əsasən iki yol — ələvi-bəktaşi xalq təsəvvüf ədəbiyyatı və məlami-həmzəvi şeiri A.Gölpınarlının ifadəsiylə "zümrə ədəbiyyatı" anlayışını ortaya çıxartdı. Mübahisəli olan bu terminin doğru olub olmadığı, yanlışlıqları və s. haqqında fikirləri bir tərəfə qoymaqla onu demək lazımdır ki, təməldə hər iki ədəbiyyatın məşrəbi Xorasan məlamiliyinə, məlaməti-qələndəri düşüncəyə dayansa da bunların arasında bəzi fərqlər də vardı. Məlami-bayramilər batini hərəkatlara, yorumlara az meyl etməklə, əhli-beyt sevgisini, şiə inanclarını qüvvətli bir şəkildə təmsil etməklə ilahi eşq konsepsiyalarını da bu bağlamda qurmuş oldular (2, 375). Allah-Məhəmməd-Əli birliyinin əslində ilahi eşqin özü olduğu düşüncəsinin hakim olduğu ələvi-bəktaşı şeiri öz tərkibini hürufi, şiə, batini yorumlarla zənginləşdirdi. Ancaq ələvi-bəktaşi şairləri şeirlərində hürufi, aşırı şiəlik əqidələrinə yer versələr də tam mənası ilə nə hürufi, nə də şiə ədəbiyyatı yaratdılar. Bu şairlərin demək olar ki, hamısının həyatının, doğum və ölüm tarixinin məlum olmaması, buna baxmayaraq haqlarında mənkabələrin və vilayətnamələrin yazılması, türbələrinin xalq tərəfindən ziyarət edilməsi onları xalqın gözündə müqəddəsləşdirdi. Ən acınacaqlı olanı da XV yüzilin ələvi-bəktaşi şairlərindən bir çoxunun şeirlərinin zamanında yazıya alınmadığı üçün dilinin o zamanın dilini deyil də, ağızdan-ağıza keçdiyi üçün XIX-XX əsrlərin dilini yansıtması məsələsidir.

Bununla bərabər XV əsrdə təsəvvüf şeirinin inkişafında qadiriyyənin əşrəfiyyə qolu, zeyniyyə, xəlvətiyyə və onun ruşəniyyə qolu, mövləviyyə və nəkşbəndiyyə şairlərinin də böyük rolu oldu. İlahi eşqə münasibət bir sadəcə təriqət fərqlərinə görə deyildi, həmçinin şairlərin təhsilinə, dünyagörüşünə görə idi.

**Məqalənin aktuallığı**. İlahi eşq mövzusu XI-XII əsrlərdə təsəvvüf və ya təkkə poeziyasının güclənməsi ilə yeni bir mərhələyə qədəm qoymuşdur. İlahi eşq məsələsini ən çox işləyən ələvi-bəktaşi və məlami-həmzəvi şairləridir.

**Məqalənin elmi yeniliyi**. Məqalədə diqqəti çəkən ən mühüm məsələlərdən biri də odur ki, həmin dövrdə təsəvvüf ədəbiyyatının inkişafına təsir edən təriqət şairlərinin, xüsusilə də ələvi-bəktaşi təriqət şairlərinin yaradıcılığında işıqlandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** "XV əsr təkkə ədəbiyyatında ələvi-bəktaşi şairlərinin ilahi eşqə verdiyi önəm" mövzusundakı məqalə türk ədəbiyyatında önəmli yer tutan təsəvvüf ədəbiyyatının inkişafından bəhs etməklə bu mövzuda araşdırma aparan tədqiqatçılara, həmçinin də Şərqşünaslıq və filologiya sahəsində mütəxəssislər və tələbələr üçün əsaslı mənbə rolunu oynamaqdadır.

## Ədəbiyyat

1. Bayat Füzuli. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013.
2. Gölpınarlı Abdülbaki. Halk edebiyatında zümre edebiyatları. Türk dili. XIX, 1968.
3. Özmen İsmail. Alevi-bektaşi şiir antolojisi. C.1. Ankara Türk tarih kurumu basımevi, 1998.
4. Sadık Abdal Divanı, Yayına hazırlayan: H.D.Gümüşoğlu. İstanbul: Horasan yayınları, 2009.

**Н. Исмаилзаде**

## Значение придаваемое божественная любви поэтами из числа алевитов-бекташи в суфийской литературе VI века

### Резюме

Большая заслуга в развитии суфийской литературы в XV веке принадлежит поэтам - алевитам-бекташи. В XV столетии литература алевитов-бекташи переживала золотой век. Основными представителями их литературы являются Таманнайи, Садиг Абдал, Кючук Абдал, Гювендж Абдал и их последователи в XVI веке Мухйиддин Абдал, Хейрати, Пир Султан Абдал, Гул Гуммет и другие. Согласно поэтам – алевитам-бекташи поклонение божественной любовью преподносится как одно и то же понятие, поклонение возможно с любовью, поклонение без любви – не поклонение. Под божественной любовью представители алевитов-бекташи подразумевали любовь Аллаха, Мухаммеда и Али и бесконечную привязанность к ним. Божественная любовь в произведениях поэтов алевитов-бекташи опирались на философию вахдат ал вуджуд, любовь ахл-аль бейт.

**N. Ismailzadeh**

## The Concentration of Alevi-Bektashi Poets on Divine Love in the 15th Century Sufi Literature

### Summary

In the 15th century, the development of the Tekke literature was mainly dependent on the Alawi Bektashi poets. It actually experienced its golden age during the 15th century. Temmanayi, Sadik Abdal, Kuchuk Abdal, Guvench Abdal and their followers in the 16th century, Muhyiddin Abdal, Hayrati, Pir Sultan Abdal, Qul Himmat and the others are the major representatives of the Alawi-Bektashi literature. According to the description of Alawi-Baktashi poets divine love and worship have the same insight. worship is practiced with love, it is not worship without love. Alawi-Bektashis by the Divine love mean the love of Allah-Muhammad-Ali and complete devotion to them. The poets of Divine love in Alawi Bektashi literature, consisted of the philosophy of divine unity and the love of the family of the prophet.

**Redaksiyaya daxil olub:** 12.07.2018